# Milli Kitabxanada "Məhəmməd Əmin Rəsulzadə-140" adlı virtual və eyniadlı ənənəvi sərgi hazırlanıb

Bu il görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.

Bununla bağlı Milli Kitabxananın əməkdaşları tərəfindən "Məhəmməd Əmin Rəsulzadə-140" adlı virtual və eyniadlı ənənəvi sərgi hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Prezident İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında sərəncamı, fotolar, dövri mətbuat səhifələrində onun haqqında dərc olunan məqalələr, müəllifi olduğu kitablar, haqqında yazılan kitablar, ənənəvi sərgidə isə Milli Kitabxananın fondunda mühafizə olunan əsərləri, ictimai-siyasi fəaliyyəti ilə bağlı ədəbiyyatlar Azərbaycan və digər dillərdə nümayiş olunur.




Virtual sərgi ilə tanış olmaq istəyənlər http://anl.az/el/vsb/Mehemmed_Emin_Resulzade_140/index.htm linkindən istifadə edə bilər.

Ənənəvi sərgi 1 həftə davam edəcək.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 31 yanvar, № 20.- S.11.